# KİNOLOJİ XİDMƏTİN İNKİŞAFI və STATUS DƏRƏCƏLƏRİ ALMASI

Dövlət Gömrük Komitəsinin müvafiq Sərəncamı ilə 30 sentyabr 1997-ci ildə Gömrük Sahəsində Hüquqpozmalara Qarşı Mübarizə Baş İdarəsi Əməliyyat İdarəsinin tərkibində Kinoloji şöbə yaradılmış, 2003-cü ildə istismara verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 6 fevral 2009-cu il tarixli, 47 nömrəli Fərmanı ilə Mərkəzə status dərəcəsi verilmişdir. Kinoloji Mərkəz tərəfindən beynəlxalq əməkdaşlıq çərçivəsində verilən töhfələrin və keçirilən təlimlərin əhəmiyyəti nəzərə alınmaqla, 2015-ci ilin sentyabr ayının 7-də Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı arasında Memorandum imzalanmış və Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzinə Ümumdünya Gömrük Təşkilatının Regional Kinoloji Təlim Mərkəzi Statusu verilmişdir. Memorandum Azərbaycan Respublikası Prezidentinin 30 oktyabr 2015-ci il tarixli Sərəncamı ilə təsdiqlənmişdir.



AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN

FƏRMANI

**Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 510 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu"na dəyişiklik və əlavə edilməsi haqqında**

1. "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturunun təsdiq edilməsi və Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Əsasnaməsinə əlavələr edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 19 iyun tarixli 510 nömrəli Fərmanı ilə (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001-ci il, №6, maddə 408; 2004-cü il, №5, maddə 333, №6, maddə 441, №12, maddə 1002; 2008-ci il, №6, maddə 485) təsdiq edilmiş "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin strukturu"na aşağıdakı dəyişiklik və əlavə edilsin:

1.1. 2-ci bənddən "Tibbi Xidmət İdarəsi" və "Gömrük mühafizə xidməti" sözləri çıxarılsın;

1.2. 3-cü bənddə "İdman-sağlamlıq mərkəzi" sözlərindən sonra "Tibbi Xidmət İdarəsi", "Gömrük mühafizə xidməti" və "Kinoloji mərkəz" sözləri əlavə edilsin.

2. Müəyyən edilsin ki, Tibbi Xidmət İdarəsi və Kinoloji mərkəz nəzdində təsərrüfat hesablı qurumlar yaradıla bilər.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

4. Bu Fərman imzalandığı gündən qüvvəyə minir.

İlham Əliyev

Azərbaycan Respublikasının Prezidenti

Bakı şəhəri, "6" fevral 2009-cu il

№47



**Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Ümumdünya Gömrük Təşkilatı arasında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzindən Ümumdünya Gömrük Təşkilatının Regional Kinoloji Mərkəzi kimi istifadə edilməsinə dair Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında**

**Azərbaycan Respublikası Prezidentinin Sərəncamı**

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 17-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi ilə Ümumdünya Gömrük Təşkilatı arasında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzindən Ümumdünya Gömrük Təşkilatının Regional Kinoloji Mərkəzi kimi istifadə edilməsinə dair 2015-ci il sentyabrın 7-də Bakı şəhərində imzalanmış Anlaşma Memorandumu təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi bu Sərəncamın 1-ci hissəsində göstərilən Anlaşma Memorandumunun müddəalarının həyata keçirilməsini təmin etsin.

3. Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi Anlaşma Memorandumunun qüvvəyə minməsi üçün zəruri olan dövlətdaxili prosedurların yerinə yetirildiyi barədə Ümumdünya Gömrük Təşkilatına bildiriş göndərsin.

***Azərbaycan Respublikasının Prezidenti***

***İlham ƏLİYEV***

***Bakı şəhəri, 30 oktyabr 2015-ci il***

***«Azərbaycan» qəzetində dərc edilmişdir (1 noyabr 2015-ci il, № 239) («VneshExpertService» LLC).***

*© «VneshExpertService» LLC*

**Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi ilə Ümumdünya Gömrük Təşkilatı arasında Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzinin Ümumdünya Gömrük Təşkilatının Regional Kinoloji Mərkəzi kimi istifadə edilməsinə dair**

**Anlaşma Memorandumu**

Bundan sonra birlikdə "Tərəflər", ayrılıqda isə "Tərəf" adlandırılan Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi və Ümumdünya Gömrük Təşkilatı[1] (ÜGT):

Ticarətin həcminin artması, ticarətin qloballaşması və regional inteqrasiya səbəbindən gömrük idarələrinin üzləşdikləri böyük çətinlikləri qəbul edərək;

Dəyişkən ticarət strukturunun, ticarətin daha da asanlaşdırılmasına olan ehtiyacın və məhdud ehtiyatlarla daha çox istehsal tələbatının gömrük idarələri arasında və ÜGT ilə geniş əməkdaşlıq tələb etdiyini qəbul edərək;

Gömrük sahəsində əsas beynəlxalq konvensiyaların, tövsiyələrin və digər standartların vahid formada tətbiqi üçün məlumatların yayılmasının, təlimlərin və texniki yardımın zəruri olduğunu dərk edərək;

ÜGT-nin öz üzvlərini münasib və mühüm təlim və texniki yardımla təmin etdiyini dərk edərək;

aşağıdakılar barədə razılığa gəldilər:

**Maddə 1**

ÜGT Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin Kinoloji Mərkəzinin imkanlarından Ümumdünya Gömrük Təşkilatının Regional Kinoloji Mərkəzi kimi narkotik vasitələrin, tütün məhsullarının və mümkün olan digər materialların (əskinasların, partlayıcıların və s.) aşkarlanması üzrə itlərin və kinoloji mütəxəssislərin regional təlimi məqsədi ilə istifadə edəcəkdir.

**Maddə 2**

1-ci Maddədə müəyyən edilmiş məqsədlərə nail olmaq üçün Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi özünün mövcud Kinoloji Mərkəzinin ÜGT tərəfindən istifadəsi üçün şərait yaradacaqdır.

**Maddə 3**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Kinoloji Mərkəzə sahib olmaqda və onu idarə etməkdə, həmçinin özünün milli və beynəlxalq proqramları üçün istifadə etməkdə davam edəcəkdir.

[1] 1952-ci ildə Gömrük Əməkdaşlıq Şurası kimi təsis edilmişdir.

**Maddə 4**

Tərəflər ÜGT-nin Regional Kinoloji Mərkəzi üçün imkanlardan istifadəni müəyyən etmək məqsədi ilə öz təlim planlarını bir-birinə bildirəcəklər.

ÜGT hər bir planlaşdırılan tədbirdən ən az iki ay əvvəl həmin tədbirin təsdiqlənməsi məqsədi ilə zəruri məlumatlarla birgə ilkin bildiriş göndərməlidir.

Bu Anlaşma Memorandumunun imzalanması tarixindən bir ay müddətində Tərəflər onun icrasından irəli gələn məsələlərin əlaqələndirilməsi məqsədi ilə əlaqələndirici əməkdaşlar təyin edəcəklər.

**Maddə 5**
**ÜGT-nin Regional Kinoloji Mərkəzinin istifadəsi üçün texniki şərtlər**

Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi mövcud Kinoloji Mərkəzinin təlim meydançalarının, təlim vasitələri ilə birgə tədris otaqlarının, iclas otaqlarının, tələbələr üçün yaşayış yerlərinin, volyerlərin, xüsusi nəqliyyat vasitələrinin və digər xidmət ləvazimatlarının ÜGT tərəfindən istifadəsinə şərait yaradacaqdır.

**Maddə 6**

Bu Anlaşma Memorandumu Azərbaycan tərəfinin onun qüvvəyə minməsi üçün zəruri olan müvafiq dövlətdaxili prosedurların yerinə yetirilməsini təsdiq edən yazılı bildirişinin diplomatik kanallar vasitəsilə ÜGT tərəfindən alındığı tarixdən qüvvəyə minir.

Tərəflərdən hər hansı biri bu Anlaşma Memorandumunu ləğv etmək niyyəti barədə digər Tərəfə istənilən vaxt diplomatik kanallar vasitəsilə yazılı bildiriş göndərə bilər. Ləğvetmə, belə bildirişi digər Tərəfin almasından 15 gün sonra qüvvəyə minəcəkdir.

Bu Anlaşma Memorandumuna Tərəflərin qarşılıqlı razılığı ilə istənilən əlavə və dəyişikliklər edilə bilər. Belə əlavə və dəyişikliklər bu Anlaşma Memorandumunun ayrılmaz tərkib hissəsi olan ayrıca protokollar formasında edilir və bu maddənin 1-ci bəndinin müddəalarına uyğun olaraq qüvvəyə minir.

Bakı şəhərində "7" sentyabr 2015-ci il tarixində iki əsl nüsxədə, Azərbaycan və ingilis dillərində imzalanmışdır, hər iki mətn bərabər autentikdir. Bu Anlaşma Memorandumunun Azərbaycan və ingilis dillərində olan versiyalarında fikir ayrılığı yarandığı təqdirdə, ingilis dilində olan versiyaya üstünlük veriləcəkdir.

| Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi adından | Ümumdünya Gömrük Təşkilatı adından |
| --- | --- |